İPƏK YOLU, No.2, 2025, səh.18-28
https://doi.org/10.30546/SI.2025.2.5.217

# QİDA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN MİLLİ İQTİSADİYYATIN STRUKTURUNA TƏSİRİ

**Ceyran Bəbirova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: jeyran.babirova@gmail.com

**Xülasə.** Qida təhlükəsizliyinin təmin edilməsinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi və onun milli iqtisadiyyatın strukturuna təsirinin araşdırılması aktual bir məsələdir. Məqalədə qida təhlükəsizliyinin ümumi iqtisadiyyata təsiri qısa analiz edilmiş, bundan başqa ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılmış islahatların milli iqtisadiyyatın strukturuna təsiri araşdırılmışdır.

**Açar sözlər:** Milli iqtisadiyyatın strukturu, qida təhlükəsizliyi, real sektor, kənd təsərrüfatı istehsalı.

**IMPACT OF FOOD SAFETY ON THE STRUCTURE OF THE NATIONAL ECONOMY**

**Ceyran Babirova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** Assessing the impact of ensuring food safety on the economy and examining its impact on the structure of the national economy is a actual issue. The article briefly analyzes the influence of food security on the economy as a whole, and also examines the impact of the reforms implemented in our country in the area of food security on the structure of the national economy.
**Keywords:** Structure of the national economy, food safety, real sector, agricultural production.

**ВЛИЯНИЕ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ НА СТРУКТУРУ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ**

**Джейран Бабирова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** Оценка влияния обеспечения безопасности пищевых продуктов на экономику и рассмотрение его влияния на структуру национальной экономики является актуальной проблемой. В статье кратко анализируется влияние продовольственной безопасности на экономику в целом, а также рассматривается влияние реформ, проводимых в нашей стране в области обеспечения продовольственной безопасности, на структуру национальной экономики.
**Ключевые слова:** Структура национальной экономики, продовольственная безопасность, реальный сектор, сельскохозяйственное производство.

## 1. Giriş

Qida təhlükəsizliyi mürəkkəb bir anlayış olmaqla milli iqtisadiyyata müxtəlif aspektlərdən təsir edir. Belə ki, qida təhlükəsizliyi əhalinin keyfiyyətli qida ilə təmin edilməsi ilə yanaşı ölkənin heyvan və bitki sağlamlığı ilə bağlı məsələləri də əhatə edir. Əhalinin keyfiyyətli qida ilə təmin edilməsi ölkə əhalisinin sağlamlığına, bu isə dolayısı ilə fəal əhali sayına və iqtisadiyyata təsir edir. Bunu, əsasən, hər il qida təhlükəsizliyi məsələləri ilə əlaqədar zərərçəkən şəxslərin sayını, habelə onların səhiyyə xərclərini nəzərdən keçirməklə araşdırmaq mümkündür. Bundan əlavə, qida təhlükəsizliyi məsələləri kənd təsərrüfatı məhsullarının keyfiyyətinin artmasına səbəb olmaqla, onların ixracının artmasına, qida məhsullarının geri qaytarılması kimi halların azalmasına da səbəb olur. Lakin qida təhlükəsizliyinin təmin

edilməsinin milli iqtisadiyyatın strukturuna təsirini qiymətləndirərkən əsas məsələ qida təhlükəsizliyinin milli iqtisadiyyatın strukturunu təşkil edən elementlərə və onlar arasındakı balansa təsirini öyrənməkdən ibarətdir. Bu məqsədlə də məqalədə milli iqtisadiyyatın strukturu araşdırılmış və ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılmış islahatlardan sonra milli iqtisadiyyatın strukturunda hər hansı bir dəyişikliyin olub-olmaması araşdırılmışdır.

## 2. Milli iqtisadiyyatın strukturuna nəzəri yanaşmalar

Milli iqtisadiyyatın strukturu mürəkkəb olmaqla iyerarxik quruluşa malikdir. Milli iqtisadiyyatı struktur nöqteyi-nəzərindən gözdən keçirdikdə üç əsas səviyyə diqqəti cəlb edir [5]:

1. Sosial iqtisadi münasibətlər;
2. Funksional əlaqələrin cəmi;
3. İqtisadiyyatda mövcud institutların məcmusu.




**Diaqram 1.** Milli iqtisadiyyatın sxematik təsviri
**Mənbə:** [10]

Milli iqtisadiyyat milli sərhədlər daxilində tarixən formalaşmış, istehsal və qeyri-istehsal fəaliyyətlərinin məcmusudur, başqa sözlə ifadə etsək, müəyyən bir dövr ərzində dövlət və millət daxilində formalaşan əmək bölgüsünün və əməkdaşlığın ifadəsidir. Milli iqtisadiyyatın əsas elementləri ərazi, əhali və təbii sərvətlərdir. Milli iqtisadiyyat bir-biri ilə qarşılıqlı əlaqədə olan bir sıra elementlərdən ibarət mürəkkəb bir sistemdir. Müasir dövrdə milli iqtisadiyyatlar bir-birindən iqlim şəraitinə, əhalisinin sayına, ərazi ölçüsünə və təbii sərvətlərinə görə fərqlənirlər. Lakin milli iqtisadiyyatlar arasında əsas fərqlər ölkələrin iqtisadi inkişaf səviyyəsi, xüsusilə ictimai münasibətlər, istehsal qüvvələri və sahə quruluşu ilə bağlıdır. Milli iqtisadiyyat mürəkkəb kibernetik və dinamik sistem olmaqla iqtisadi struktur, funksiyalar və davranışlarla müəyyən edilir. Diaqram 1-dən göründüyü kimi, milli iqtisadiyyat təşkilatlarda, bölmələrdə, filiallarda, sektorlarda, sahələrdə və təşkilati sferalarda baş verən məhsuldar və qeyri-məhsuldar fəaliyyətlərin məcmusudur.

Milli iqtisadiyyat açıq bir sistemdir. Qlobal iqtisadiyyatın tərkib hissəsi kimi milli iqtisadiyyat dünya iqtisadiyyatının digər komponentləri ilə beynəlxalq əmək bölgüsü, əmtəə və xidmət axını, kapital və informasiya axınları vasitəsilə qarşılıqlı əlaqədədir. Milli iqtisadiyyatın strukturu onun tərkib hissələrini, bu tərkib hissələrinin xarakterini və xüsusiyyətlərini, hər bir elementin bütövlükdə tutduğu mövqe və əlaqələri, o cümlədən onların qarşılıqlı əlaqəsini əks etdirir. Milli iqtisadiyyatın strukturu həm horizontal, həm də vertikal şəkildə təsvir edilir. Horizontal yanaşmada milli iqtisadiyyatın bölündüyü sahələr, sektorlar nəzərdən keçirilirsə, vertikal yanaşmada iyerarxik səviyyələrə diqqət yetirilir. Diaqram 2-də milli iqtisadiyyatın horizontal və vertikal strukturu təsvir edilmişdir [7].




**Diaqram 2.** Milli iqtisadiyyatın horizontal və vertikal strukturu
**Mənbə:** [10].

Horizontal olaraq milli iqtisadiyyat 4 sektora ayrılır. Bunlara aiddir:

- ***Real sektor*** - kənd təsərrüfatı kimi əhəmiyyətli dərəcədə təbii və əmək resursları tələb edən sahələr daxildir.
- ***Təkrar istehsal sektor*** - bu sektora real sektorda istehsal edilmiş məhsulların yenidən istehsal edilməsi ilə məhsul əldə edən sektorlar daxildir. Məsələn tikinti və emal sənayesi bu sektora daxildir.
- ***Xidmət sahələri*** - əmtəələrdən daha çox xidmət sahələri daxildir. Məsələn nəqliyyat, satış, təhsil, sağlamlıq və s. buna aid ola bilər.

- ***Dördüncü sektor*** - elmi tədqiqat, texnoloji inkişaf, dizayn və s.-i özündə birləşdirir və ümumi milli iqtisadiyyatın inkişafına çox yüksək töhfə verir.

Yuxarıda qeyd olunan 4 sektordan əlavə bəzən 5-ci sektorun da adı çəkilir ki, bu sektora bəzən "qızıl yaxalıqlı" sektor deyilir və iqtisadiyyatda yüksək səviyyədə qərarvermə səlahiyyətinə malik təşkilatları özündə birləşdirir. Məsələn yüksək hökumət təşkilatları, universitetlər, qeyri-kommersiya təşkilatları və səhiyyəni misal göstərmək olar. Buraya kommersiya müəssisələrindən daha çox ictimai xidmətlər olan polis və yanğınsöndürmə idarələri də daxil ola bilər [11]. İqtisadi fəaliyyət növlərinə görə milli iqtisadiyyat 12 sahəyə bölünür: kənd təsərrüfatı, meşə təsərrüfatı, ovçuluq, balıqçılıq və sənaye, tikinti, ticarət, mehmanxana və restoranlar, nəqliyyat və anbar təsərrüfatı, poçt və telekommunikasiya, bank, maliyyə və sığorta, dövlət idarəetməsi, təhsil, səhiyyə və sosial fəaliyyət.

Milli iqtisadiyyatın vertikal strukturuna aşağıdakılar daxildir:

- **Mikro-iqtisadi səviyyə -** müxtəlif mülkiyyət formalarına malik iqtisadi subyektlər və onların işçiləri arasındakı təsərrüfat münasibətləri daxildir. Müxtəlif kənd təsərrüfatı subyektləri, zavodlar, müəssisələr və ya hökumət təşkilatları bunlara misal ola bilər.
- **Mezo-iqtisadi səviyyə** - müxtəlif region və ya sənaye sahələrindəki fəaliyyətlər nəzərdə tutur.
- **Makro-iqtisadi səviyyə** - bütün ölkə ərazisində baş verən istehsal və qeyri-istehsal münasibətləri nəzərdə tutulur.
- **Dünya iqtisadiyyatı səviyyəsi** - ölkələrin milli iqtisadiyyatları arasında baş verən beynəlxalq əmək bölgüsü və ticarət kimi istehsal və qeyri-istehsal münasibətləri nəzərdə tutulur.

## 4. Qida təhlükəsizliyi ilə bağlı ölkə iqtisadiyyatında baş vermiş itkilər

Qida təhlükəsizliyi qida zəncirinin bütün mərhələlərində insanların həyat və sağlamlığına dəyən zərərin qarşısının alınması kimi başa düşülür. Hazırda ölkəmizdə qida təhlükəsizliyinə "vahid sağlamlıq" konsepsiyası kimi yanaşılır və bu termin özündə heyvan, bitki və insan sağlamlığının qorunmasını ehtiva edir [9].

Qida təhlükəsizliyinin ümumi iqtisadiyyata təsiri ilə bağlı bir sıra araşdırmalar aparılmışdır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, hər il təqribən dünya əhalisinin hər 10 nəfərindən 1-i və ya başqa sözlə desək, 600 milyon insan qida zəhərlənməsinə məruz qalır və bu insanlardan 420 000 nəfəri vəfat edir. Aşağı və orta gəlirli ölkələrdə qida zəhərlənmələri ilə əlaqədar işçi qüvvəsinin məhsuldarlığının azalması və tibbi xərclərlə bağlı təqribən 110 milyard ABŞ dolları iqtisadi itki müşahidə edilir. Bundan əlavə, qida mənşəli xəstəliklərin 40%-i 5 yaşdan az uşaqların payına düşür ki, hər il onlardan 125 000 nəfəri bu səbəbdən vəfat edir [12]. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin məlumatlarına əsasən, 2023-cü ildə 143 sayda zəhərlənmə faktı nəticəsində 285 nəfər şəxs qida zəhərlənməsinə məruz qalmış, onlardan 2-si vəfat etmişdir [3].

Qida mənşəli xəstəliklərin iqtisadiyyata təsirini qiymətləndirmək üçün fərqli ölkələrdə müxtəlif istiqamətlərdə araşdırmalar aparılmışdır. Məsələn İndoneziyada qida mənşəli xəstəliklərlə bağlı yaranmış xərcləri hesablamaq üçün sorğular keçirilmiş və xərclər kateqoriyalaşdırılaraq ümumi hesablamalar aparılmışdır. Ölkədə baş vermiş qida mənşəli xəstəliklərin iqtisadiyyata təsirini qiymətləndirən digər alimlərə Luis A. Ribera, Marco A. Palma, Mechel Paggi, Ronald Knutson, Joseph G. Masabni və Juan Ancisonu misal gətirmək olar. Onlar özlərinin "Economic Analysis of Food Safety Compliance Costs and Foodborne Illness Outbreaks in the United States" adlı elmi əsərlərində qida təhlükəsizliyi ilə bağlı baş verən hadisələrin yerli daşımalara, idxala və emal sənayesində qiymətlərə potensial təsirini araşdırmışlar. Qida təhlükəsizliyi məsələləri ilə bağlı ölkəmizdə aparılmış tədqiqatlara fındıq ixracı nəticəsində yaranmış qida təhlükəsizliyi məsələləri ilə bağlı məhsulun geri çağrılması nəticəsində yaranmış iqtisadi itkilərin hesablanması misal ola bilər. Nəticədə, aydın olmuşdur ki, 2019-2021-ci illər ərzində fındıqda aşkar olunmuş aflatoksin nəticəsində 2 661 000 ABŞ dolları məbləğində iqtisadi itki müşahidə edilmişdir [6].

Qida təhlükəsizliyinin təmin edilməsinin milli iqtisadiyyata digər bir təsiri ixracla əlaqədardır. Belə ki, ölkədə qida təhlükəsizliyinin təmin edilməsi qida məhsullarının beynəlxalq bazarlara çıxış imkanlarını artırmaqla onların rəqabət qabiliyyətinin artırılmasına və ixrac bazarlarının genişlənməsinə səbəb olur. 2024-cü ildə bitki yağlarının ixracı ilə ölkədə bitki yağlarının tənzimlənməsi ilə bağlı qəbul edilmiş yeni normanın arasındakı əlaqə analiz edilmişdir. Nəticədə, aydın olmuşdur ki, bitki yağlarına dair normaların beynəlxalq tələblərə uyğunlaşdırılması nəticəsində 2022-ci ildə bitki yağlarının ixracında 2020-ci illə müqayisədə 17%-lik artım müşahidə edilmişdir [4]. 2013-cü ildə Cemal Atıcı tərəfindən 2002-ci ildə qüvvədə olan normaların Avropa İttifaqı tələblərinə uyğunlaşdırılması nəticəsində Türkiyədə əncir və fındıq ixracındakı dəyişikliklər nəzərdən keçirilmişdir. Nəticədə, sözügedən islahatdan sonra fındıq ixracında 18%-lik artım müşahidə edilsə də, əncir ixracında dəyişikliyə rast gəlinməmişdir [1].

Qida təhlükəsizliyinin təmin edilə bilməməsi ilə əlaqədar yaranmış bir digər iqtisadi itkiyə qida məhsullarının geri çağrılması halları aid edilə bilər. Avropa ölkələrindən geri çağırılmış məhsulların statistikasına əsasən, 2023-cü ildə 4199-u qida, 303-ü yem və 193-ü qida ilə təmasda olan materiallar olmaqla, ümumilikdə 4695 bildiriş RASFF-a (Rapid Alert System for Food and Feed) daxil olub. Qeyd olunan göstərici sistem yaradılandan qarşılaşılan ən yüksək göstəricidir və 2022-ci illə müqayisədə 8% çoxdur. Bildirişlərin 1143-ü dövlət nəzarəti, 983-ü şirkətlərin fərdi təşəbbüsü, 250-si istehlakçı şikayəti, 83-ü isə monitorinq proqramları nəticəsində qeydə alınıb. Geri qaytarma bildirişlərinin 592-si Almaniya, 589-u Hollandiya, 421-i Fransa, 411-i isə İtaliya tərəfindən verilib. Qeyd etmək lazımdır ki, 2023-cü ildə Fransa 2022-ci ilə nisbətən 50% daha çox bildiriş göndərib [8]. Təsərrüfat subyektləri üçün geriqaytarma halları zamanı yaranmış iqtisadi itkilərin təqribən 10 milyon ABŞ dolları məbləğində olduğu fərz edilir. Belə olduğunu nəzərə alsaq, təkcə 2019-cu ildə ABŞ-da qida məhsullarının

geriqaytarılması halları ilə əlaqədar itkinin ümumi bu sahədəki gəlirlərin 0.5%-ni əhatə etdiyi aydın olur [13].

Qida təhlükəsizliyinin milli iqtisadiyyatın strukturuna təsirini anlamaq üçün ilkin olaraq qida təhlükəsizliyinin real sektora təsirini nəzərdən keçirmək lazımdır. Buraya kənd təsərrüfatı, meşə təsərrüfatı və təbii resursların ilkin istehsalı sektorları daxildir. Aydındır ki, qida təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatı sektorunun inkişafını stimullaşdırır, yerli istehsalın gücləndirilməsi və idxalın əvəzlənməsinə şərait yaradır. Qida təhlükəsizliyi tarladan başlayır və bütün tədarük zənciri boyu davam edir. Buna görə də bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektləri öz fəaliyyətlərini qida itkilərinin qarşısını almaq, istehlakçıları və özlərini qida təhlükələrindən qorumaq üçün qida təhlükəsizliyi ilə bağlı beynəlxalq və milli standartlara uyğun qurmalıdırlar [2].

## 5. Azərbaycan Respublikasında milli iqtisadiyyatın struktur göstəriciləri və son dövrlər bu sahədə baş vermiş dəyişikliklər

2023-cü ildə Azərbaycan Respublikasında milli iqtisadiyyatın strukturunu nəzərdən keçirmək üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumat bazasından istifadə edərək aşağıdakı diaqram hazırlanmışdır. Diaqram 3-dən aydın olduğu kimi, 2023-cü ildə real sektorun milli iqtisadiyyatda payı 42.8%, xidmət sektoru 42.6%, təkrar istehsal sektoru isə 14.6% təşkil etmişdir. Real sektorun 14.2%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoruna, 85.8%-i isə mədənçıxarma sənayesinin payına düşməkdədir.




**Diaqram 3.** Azərbaycan Respublikasında milli iqtisadiyyatın strukturu, 2023-cü il
**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

İllər üzrə sözügedən göstəricilərin dinamikasını nəzərdən keçirdikdə aydın olur ki, 2010-cu ildən 2023-cü ilədək milli iqtisadiyyatın strukturunun daxilində müəyyən dəyişikliklər müşahidə olunsa da, əsasən, real sektorun payı yüksək olmuşdur. Belə ki, real sektorun milli iqtisadiyyatın strukturundakı payı ən az həddə 2015-ci ildə 35.8% olmuşdur, ən yüksək həddə isə 2011-ci ildə 56.3%-ə çatmışdır. Təkrar istehsal sektoru isə milli iqtisadiyyatın strukturunda ən az paya malik olmaqla, 2022-ci ildə ən aşağı paya 12.2%-ə, 2014-cü ildə isə ən yüksək paya 20.9%-ə çatmışdır. Diaqram 4-də 2010-2023-cü illər ərzində Azərbaycan Respublikasının milli iqtisadiyyatın strukturunda baş vermiş dəyişikliklər ətraflı təsvir edilmişdir.




**Diaqram 4.** 2010-2023-cü illər ərzində Azərbaycan Respublikasının milli iqtisadiyyatın strukturunda baş vermiş dəyişikliklər

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Kənd təsərrüfatı istehsalının real sektordakı payını analiz etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsinə müraciət edilmiş və aşağıdakı diaqram hazırlanmışdır. Diaqram 5-dən aydın göründüyü kimi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın real sektordakı payı illər üzrə 9-20% aralığında dəyişmişdir. Qeyd etmək lazımdır ki, 2020-ci ildə ən yüksək göstərici 20%, 2022-ci ildə isə ən aşağı göstərici 9% müşahidə edilmişdir. 2010-cu ildən 2015-ci ilədək qeyd olunan göstəricidə müsbət tendensiya izlənmişdir. Belə ki, kənd təsərrüfatının real sektordakı payı 2010-cu ildə 11%-dən 2015-ci ildə 19%-dək yüksəlmişdir. 2015-ci ildən 2018-ci ilədək istehsalda 19%-dən 12%-dək azalma müşahidə edilmişdir. 2020-ci ildə kənd təsərrüfatı istehsalının real sektordakı payı özünün pik həddinə 20%-ə yüksəlmişdir.




**Diaqram 5.** 2010-2023-cü illər ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın real sektordakı payı
**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Yuxarıda əks olunmuş diaqramda 2010-2023-cü illər ərzində ümumi kənd təsərrüfatı istehsalının real sektordakı payı əks olunmuşdur. İllər ərzində bu göstəricidə dəyişmənin olması kənd təsərrüfatı istehsalında azalma kimi qəbul edilə bilər. Bu səbəbdən də, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq istehsalı həcmi araşdırılaraq aşağıdakı diaqram hazırlanmışdır. Diaqram 6-dan göründüyü kimi, 2010-2023-cü illər ərzində ölkə ərazisində kənd təsərrüfatı məhsulları istehsalında davamlı olaraq artım qeydə alınmışdır. 2010-2023-cü illər ərzində ümumilikdə kənd təsərrüfatı məhsulları istehsalı təqribən 3 dəfə artmışdır.




**Diaqram 6.** 2010-2023-cü illər ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıq istehsalı, milyon manatla
**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Tədqiqatı daha dəqiq nəticələndirmək üçün Dövlət Statistika Komitəsinin məlumatları əsasında 2010-2023-cü illər ərzində real sektorun daxili strukturu analiz edilmişdir və nəticədə

aydın olmuşdur ki, ölkəmizdə real sektorda əsas hissə mədənçıxarma sahəsinin payına düşməkdədir. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq isə real sektorda 10-20% arasında paya sahibdir. Ölkəmizdə qida təhlükəsizliyi sahəsində aparılan islahatlar, əsasən, 2019-2023-cü illəri əhatə etməkdədir. Qeyd olunan illəri nəzərdən keçirdikdə bir daha aydın olur ki, kənd təsərrüfatının real sektorun daxilindəki payında ciddi bir dəyişiklik izlənilməmişdir.




**Diaqram 7.** 2010-2023-cü illər ərzində Azərbaycan Respublikasının real sektorunun strukturunda baş vermiş dəyişikliklər

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Beləliklə, yuxarıda qeyd olunan göstəricilərin analizi bir daha sübut edir ki, Azərbaycan Respublikasında milli iqtisadiyyatın strukturunda qida təhlükəsizliyi ilə bağlı ciddi bir dəyişiklik izlənilməmişdir.

**Nəticə.** Qida təhlükəsizliyi mürəkkəb bir anlayış olmaqla insan, bitki və heyvan sağlamlığının təmin edilməsini nəzərdə tutan vahid konsepsiyanı ifadə edir. Qida təhlükəsizliyinin təmin edilməsinin ölkə iqtisadiyyatına təsiri çoxsaylı aspektdən qiymətləndirilməklə fərqli anlayışları özündə birləşdirir. Beləliklə, qida təhlükəsizliyinin iqtisadiyyata təsirini aşağıdakı kimi kateqoriyalaşdırmaq mümkündür:

1. İnsan sağlamlığının təmin edilməsi nöqteyi-nəzərindən qida təhlükəsizliyinin iqtisadiyyata təsiri ilk növbədə özünü il ərzində qida təhlükəsizliyi məsələləri ilə əlaqədar zərərçəkən şəxslərin sayında büruzə verir. Belə ki, qidadan zəhərlənən şəxslər ölkədə məşğul əhalinin sayında azalmaya səbəb olduğu kimi, bununla bağlı səhiyyə xərclərinin də artmasına səbəb olur.

2. Qida məhsullarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması və beynəlxalq normalara uyğunlaşdırılması nöqteyi-nəzərindən məsələyə baxdıqda aydın olur ki, ölkədə qida

məhsullarının keyfiyyətinin yüksəldilməsi sözügedən məhsulların rəqabətqabiliyyətini artırmaqla ixrac potensialının artmasına və beynəlxalq ticarət bazarlarının genişlənməsinə səbəb olur. Digər tərəfdən, normaya uyğun olmayan məhsulların geri çağrılması kimi halların analizi nəticəsində aşkar olur ki, hər il kifayət qədər qida mənşəli məhsulun geriçağrılması halı yaşanır və bu da öz növbəsində iqtisadi itkilərin yaranmasına səbəb olur. Bundan başqa geriçağrılmanı tətbiq edən şirkətlərin bazarların itirilməsi və firma adının zəifləməsi kimi iqtisadi xərcləri də diqqəti cəlb etməkdədir.

3. Qida təhlükəsizliyi konsepsiyasına heyvan və bitki sağlamlığının təmin edilməsi nöqteyi-nəzərindən yanaşdıqda isə diqqət kənd təsərrüfatı məhsulları istehsalının artımına yönəlir. Çünki heyvan və bitki sağlamlığının təmin edilməsi kənd təsərrüfatı məhsullarının istehsalında artıma səbəb olacaqdır.

Qida təhlükəsizliyinin təmin edilməsinin milli iqtisadiyyata ümumilikdə deyil, strukturunda nə kimi dəyişikliyə səbəb olduğunu araşdırmaq üçün ilkin olaraq milli iqtisadiyyatın strukturu dedikdə nə nəzərdə tutulduğu iqtisadi ədəbiyyatlarda araşdırılmış və nəticədə iqtisadi fəaliyyət növləri üzrə vertikal (sektoral) bölgünün aparılmasının nəzərdə tutulduğu aydın olmuşdur. Qeyd etdiyimiz kimi, qida təhlükəsizliyinin təmin edilməsi daha çox kənd təsərrüfatı istehsalına təsirinin yüksək olduğu nəzərə alaraq, illər üzrə kənd təsərrüfatı məhsullarının istehsalının milli iqtisadiyyatın strukturundakı mövqeyi nəzərdən keçirilmişdir.

Nəticədə, aydın olmuşdur ki, ölkəmizdə qida təhlükəsizliyi sahəsində aparılmış islahatlar 2019-cu ildən etibarən həyata keçirilməyə başlansa da, milli iqtisadiyyatın strukturunda ciddi bir dəyişiklik müşahidə edilməmişdir. Beləliklə, daha əvvəldə bu sahədə aparılmış elmi araşdırmalar nəzərə alınmaqla qeyd etmək mümkündür ki, qida təhlükəsizliyi ümumilikdə iqtisadiyyata bir çox aspektdən (fəal işçi qüvvəsi, idxal və ixracın təmin edilməsi və s.) təsirə malik olsa da, milli iqtisadiyyatın strukturunda hər hansı bir dəyişikliyə səbəb olmamışdır.

## Ədəbiyyat


1. Atici C. (2013), Food Safety Regulations and Export Responses of Developing Countries: The Case of Turkey's Fig and Hazelnut Exports. FAO commodity and trade policy research working paper No.39. https://www.fao.org/4/aq459e/aq459e.pdf
2. Augustin M.A., Sanguansri L., Fox E.M., Cobiac L., Cole M.B. (2019), Recovery of wasted fruit and vegetables for improving sustainable diets. Trends in Food Science & Technology, Vol.95, 75-85. https://doi.org/10.1016/j.tifs.2019.11.010
3. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (2023), 2023-cü ildə baş vermiş qida zəhərlənmələrinin statistikası. https://afsa.gov.az/az/qida-tehlukesizliyi/qida-zeherlenmeleri
4. Babirova J. (2023), Food safety regulation and their impact on Azerbaijan vegetable oil trade. Futurity Economics & Law, Vol.3, No.4, 153-168 https://doi.org/10.57125/FEL.2023.12.25.10

5. Bayramov V.A. (2019), Milli İqtisadiyyatın Dayanıqlılığı. Monoqrafiya, Bakı, 77.
6. Bəbirova C. (2022), Qida təhlükəsizliyi tələblərinin pozulmasının iqtisadi təsirlərinin qiymətləndirilməsi. Kənd Təsərrüfatının İqtisadiyyatı, No.2, 58.
7. Dima I.C., Popescu D.V. (2000), Management. Editura Agir, Bucuresti.
8. https://food.ec.europa.eu/document/download/911d49f2-b3ef-4752-8ea3-5f20dbbe9945_en?filename=acn_annual-report_2023.pdf
9. https://report.az/sosial-mudafie/aqta-sedri-vahid-saglamliq-konsepsiyasi-gunumuzun-vacib-telebine-cevrilib/
10. Mihaescu D., Dima I., Mihaescu L. (2009), Romanian educational system and component of the national economy. University Library of Munich, Germany. https://www.researchgate.net/publication/24046653_Romanian_Educational_System_a_Component_Of_The_National_Economy
11. Rosenberg M. (2024), The 5 sectors of the economy. https://www.thoughtco.com/sectors-of-the-economy-1435795
12. World Health Organization (2024), Food safety. https://www.who.int/news-room/fact-sheets/detail/food-safety
13. Zhou P., Liu Y. (2022), Recall information heterogeneity and perceived health risk: The impact of food recall on fresh meat market in the U.S. Food Policy, Vol.114, 102398. https://doi.org/10.1016/j.foodpol.2022.102398